# Azərbaycan sərhədlərin tanınması şərti ilə münasibətləri normallaşdırmağa hazırdır

***Ölkəmiz bir il öncə 44 gün ərzində Ermənistanı məğlubiyyətə uğradaraq öz ərazi bütövlüyünü bərpa etdi və illərdən bəri BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən 4 qətnaməsini özü yerinə yetirdi. Bu, Ermənistanla münaqişənin hərbi-siyasi yolla həll edilməsi idi. Bu gün isə Azərbaycan öz konstruktiv siyasətini davam etdirir və qalib ölkə kimi münasibətləri normallaşdırmağa hazır olduğunu artıq bəyan edib. Ölkəmiz ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına və sülh sazişinin təfərrüatlarının müəyyən edilməsi üçün Ermənistanla danışıqların aparılmasına hazır olduğunu bildirib. İndi əsas məsələ Ermənistan rəhbərliyinin bu tarixi şansı əldən verməməsidir.***



Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının oktyabrın 15-dəki iclasında çıxışında iştirakçılara məlumat verərək bildirdi ki, 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin üçtərəfli bəyanatı Ermənistan–Azərbaycan münaqişəsinə son qoydu və bu, minlərlə insanın ölümündən qaçmağa imkan verdi. Üçtərəfli bəyanata müvafiq olaraq, Ermənistan öz işğalçı qüvvələrini Azərbaycanın Ağdam, Laçın və Kəlbəcər rayonlarının işğal edilmiş hissəsindən çıxardı. Bəyanatdan əvvəl Azərbaycan Silahlı Qüvvələri 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişdi.

Ermənistanın 30 il müddətində Azərbaycan torpaqlarını işğalda saxladığı zaman ərazilərimizdə törətdiyi misli görünməmiş vəhşiliklərdən danışan dövlət başçımız bildirdi ki, ermənilər ərazilərimizdə daşı-daş üstə qoymayıb, tarixi və dini abidələri dağıdıb, 67 məsciddən 65-ni tamamilə darmadağın ediblər. Düşmən məscidlərdə donuz, inək saxlayaraq İslam dinini təhqir edib. Bütün bina və tarixi abidələrin kərpic-kərpic, daş-daş sökülərək, Ermənistana aparıldığını və İrana satıldığını diqqətə çatdırıb. Dövlətimizin başçısı, eyni zamanda, təbiətimizə də çox böyük ziyan vurulduğunu, 60 min hektara yaxın meşənin qırıldığını, qızıl yataqlarının və digər təbii ehtiyatların da qanunsuz istismar edildiyini xatırladıb. Düşmən bütün bu barbar əməlləri ilə kifayətlənməyərək, uzun bir dövrdə tapdaq altında saxladığı Azərbaycan ərazisindən narkotrafik üçün istifadə edib. Respublikamızın İranla 132 kilometrlik dövlət sərhədi nəzarətsiz qaldığından, Cəbrayıl rayonundan keçməklə Ermənistana və daha sonra Avropaya narkotika daşınıb.

Prezident İlham Əliyev çıxışında hazırda Qarabağ və ətraf bölgələrimizdə ciddi narahatlıq doğuran bir məsələyə də toxundu: "Azad edilmiş ərazilərin minalardan təmizlənməsi qarşımızda duran əsas problemlərdən biridir. Müharibədən sonra 150-dən çox vətəndaş minaya düşərək həlak olub, yaxud ciddi xəsarətlər alıb. Ermənistan minalanmış sahələrin tam xəritələrini verməkdən imtina edir".

Azərbaycan Prezidentinin işğaldan azad edilmiş bölgələrimizə ardıcıl səfərləri də davam edir. Bu, ərazilərimizin bərpa-quruculuq prosesinin dövlət başçısının birbaşa nəzarətində olduğunun əyani sübutudur. Bu günlərdə Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə Zəngilana səfər edən cənab Prezident buranın Azərbaycanın ən gözəl yerlərindən biri olduğunu bildirdi və qeyd etdi ki, məqsədimiz bu tarixi məkanı yenidən qurmaqdır. Dövlət başçısı dedi: "Köhnə Zəngilandan bir şey qalmayıb. Siz indi görürsünüz, mənfur düşmən, demək olar ki, bütün binaları dağıtmışdır. Bir neçə bina qalıb ki, orada hərbçilər yerləşirdi. Qalan bütün binaları, bütün kəndlərin binalarını bir məqsədlə dağıtmışlar ki, biz buraya qayıtmayaq. Amma biz qayıtmışıq, şanlı Ordumuz düz bir il bundan əvvəl Azərbaycan bayrağını Zəngilanda qaldırdı və düşməni bu torpaqlardan qovdu. Zəngilan azad olunandan sonra artıq yolumuz Qubadlıya açıldı və beş gün sonra Qubadlı azad olundu, ondan sonra da Laçın dəhlizinə çıxdıq. Laçın dəhlizinə çıxdıqda demək olar, düşmən də bildi ki, artıq müqavimət göstərməyin mənası qalmayıb. Amma indi Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Bütün bu təbii gözəllik nəzərə alınaraq müasir, çox gözəl bir şəhər qurulacaq, həmçinin də kəndlər. Siz də bilirsiniz ki, azad edilmiş bütün torpaqlarda birinci "Ağıllı kənd" layihəsi məhz Zəngilan rayonunda həyata keçirildi".

Dövlət başçısının Zəngilan ictimaiyyəti ilə görüşündə "Zəngilandan Naxçıvana yol açılacaq. oradan da Türkiyəyə, oradan da Avropaya" – deməsi Zəngəzur dəhlizinin artıq siyasətimizin əsas kredosu olduğunu deməyə əsas verir. Bu gün ən aktual məsələlərdən biri Zəngəzur dəhlizinin açılması və Azərbaycanın öz ayrılmaz parçası olan Naxçıvanla birbaşa əlaqəsinin bərpa edilməsidir.

Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi zəfəri ilə bölgədə yeni reallıqlar yaradıb. Bu reallıq bölgədə uzunmüddətli sülhə və əminamanlığa yönəlib. Lakin Ermənistan tərəfindən bu gün də Azərbaycana qarşı terror aktları davam edir. Elə mina xəritələrinin əsas hissəsinin Ermənistan tərəfindən verilməməsi, verdiyi az sayda xəritənin isə cəmi 25 faizinin doğru olması da Ermənistan tərəfinin məkrli niyyətinin göstəricisidir.

İkinci Qarabağ müharibəsindən, təxminən, bir il ötür. Azərbaycan qalib ölkə kimi münasibətləri normallaşdırmağa, ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına və sülh sazişinin təfərrüatlarının müəyyən edilməsi üçün Ermənistanla danışıqların aparılmasına hazırdır. Ermənistanın dirçəldilməsi, inkişafı qonşuları, xüsusilə, Azərbaycan ilə sülh şəraitində yaşamasından asılıdır. Belə halda, şübhəsiz ki, qoşulacağı gələcək layihələrdə iştirakı onu indiki böhran vəziyyətindən xilas edə bilər. Əks təqdirdə, daxili çaxnaşma, vətəndaş qarşıdurması, ən başlıcası isə Azərbaycanın "dəmir yumruğu" ilə yenidən üzləşməsi qaçılmazdır.

***Tamam CƏFƏROVA,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti.- 2021.- 31 oktyabr.- S.3.